Layihə

**«Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 10, maddə 584; 2003-cü il, № 6, maddə 267; 2004-cü il, № 12, maddə 979; 2005-ci il, № 5, maddə 393; 2006-cı il, №2, maddə 67, №3, maddə 225) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 18.4-cü maddə aşağıdakı redaksiyada verilsin:
«Zərurət yarandıqda təsdiq olunmuş büdcə ayırmaları həddində funksional təsnifatın bölmələri daxilində, iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələri arasında dəyişikliklər edilə bilər.
İqtisadi təsnifatın "Əməyin ödənişi", "Təqaüdlər və sosial müavinətlər" bölmələri, "İdarənin saxlanılması", "Ezamiyyə xərcləri", "Nəqliyyat xidmətləri haqqının ödənilməsi", "Kommunal və kommunikasiya xidmətlərinin ödənilməsi", "Sair xidmətlərin haqqının ödənilməsi" köməkçi bölmələri üzrə dəyişikliklər müvafiq icra hakimiyyəti orqanı tərəfindən, qalan bölmə və köməkçi bölmələr üzrə isə dəyişikliklər müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilə bilər.»

2. 19.2-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:
«Büdcə ili ərzində vahid xəzinə hesabında olan vəsaitin qalığı (sərbəst qalıq) müvafiq icra hakimiyyəti orqanı tərəfindən idarə oluna və ya idarəetməyə verilə bilər. Sərbəst qalığın idarəetməyə verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.
Xarici valyuta ilə ödənilməsi nəzərdə tutulan dövlət büdcəsi xərclərinin xarici valyutada daxil olan dövlət büdcəsinin gəlirləri hesabına konvertasiya edilmədən həyata keçirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aparılır.»

3. 19.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

«19.5. İlin sonuna bütün xəzinə hesablarının qalıqları dövlət büdcəsinin vahid xəzinə hesabına (məqsədli təyinatlı maliyyələşmələr istisna olmaqla) köçürülür. Bu vəsaitin cari ilin dövlət büdcəsi xərclərinin on ikidə biri hissəsi həmin ilin aidiyyəti büdcə xərclərinin ödənilməsinə və dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsinə yönəldilir, habelə bu qanunun 19.2-ci maddəsinin ikinci abzasında nəzərdə tutulmuş qaydada idarə edilir, yerdə qalan hissəsi isə Azərbaycan Respublikasının Dövlət Neft Fonduna köçürülür.»

4. 19.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

«19.6. Müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla dövlət büdcəsinin icrası prosesində iqtisadi təsnifatın müvafiq bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələrində nəzərdə tutulmuş birdəfəlik təyinatlı vəsaitlər üzrə yaranmış qənaət dövlət büdcəsinin ehtiyat fonduna yönəldilərək digər tədbirlərin maliyyələşdirilməsinə sərf edilə bilər.»

II. Bu Qanun 2007-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, « » 2006-cı il
№